# Milli təhlükəsizliyimiz xarici siyasətimizin prioritetini təşkil edir

***Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Azərbaycan Ordusunun gücü, xalqımızın həmrəyliyi sayəsində Vətən müharibəsi şanlı zəfərlə başa çatdı. Dünyada baş alıb gedən ikili standartlar, islamofobiya və siyasi riyakarlıq da ermənilərin köməyinə çata bimədi. Bir sıra qüdrətli dövlətlərin və ölkəmizə qarşı daim qərəzli olan bəzi beynəlxalq təşkilatların bizə qarşı ədalətsiz mövqeyinə, təhdid və təzyiqlərinə, işğalçı Ermənistana havadarlıq etmələrinə baxmayaraq, Azərbaycan Ordusu işğalçıları diz çökdürdü. Bu qələbə ölkəmizin dünya birliyindəki reytinqini xeyli yüksəltdi və beynəlxalq ictimaiyyətdə Azərbaycanın güclü ordusu haqqında fikir formalaşdırdı. Ərazi bütövlüyümüzün bərpası uğrunda apardığımız müharibədə qazandığımız şanlı qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.***



Dövlət başçımız hər dəfə beynəlxalq tədbirlərdə iştirak edəndə və xarici ölkələrin rəsmiləri ilə keçirdiyi görüşlərdə bu işğalın əbədi olmayacağını, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa edəcəyini qəti şəkildə bildirirdi. Həyata keçirilən xarici siyasətin əsasını məhz işğal altında olan ərazilərimizin azad edilməsi təşkil edirdi. Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi müddətdə bu mesaji Ermənistana və havadarlarına dəfələrlə göndərmişdi. Lakin beynəlxalq hüquq normalarına açıq şəkildə hörmətsizlik edən işğalçı ölkə bundan nəticə çıxarmaq əvəzinə, havadarlarına güvənərək daha da quduzlaşırdı.

Prezident İlham Əliyev dünyada nüfuz sahibi olan beynəlxalq təşkilatların – BMT, Avropa İttifaqı, ATƏT, Avropa Parlamenti, NATO, eləcə də, üzvü olduğumuz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının tribunalarından “Azərbaycan bu işğalla barışmayacaq” – deyərək, qəti mövqeyini bəyan edəndə Ermənistan və havadarları ibrət götürmədilər. Ölkəmiz adı çəkilən nüfuzlu qurumlarla əməkdaşlıq çərçivəsində, habelə həyata keçirdiyi xarici siyasətdə milli maraqlarımızı, ərazi bütövlüyümüzün təmin olunmasını daim prioritet vəzifə kimi qarşıya qoydu.

**(ardı 4-cü səhifədə)**

# Milli təhlükəsizliyimiz xarici siyasətimizin prioritetini təşkil edir

*(əvvəli 1-ci səhifədə)*

Ermənistan 30 il ərzində müxtəlif bəhanələrlə danışıqlardan yayınırdı. Xarici havadarlarına güvənən işğalçı ölkənin siyasi və hərbi rəhbərliyi özgə torpaqları hesabına "böyük Ermənistan" ideyasını həyata keçirməyə əmin idi. Ancaq unudurlar ki, Azərbaycanın uğurlu xarici siyasəti işğalçı ölkəni tədricən küncə sıxışdırır. Dünyanın ən güclü hərbi təşkilatlarından olan NATO kimi bir qurumun ölkəmizlə əməkdaşlığa önəm verməsi də işğalçı ölkəni və havadarlarını qəflət yuxusundan oyatmadı. Alyansa üzv dövlətlər tərəfindən ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına həmişə dəstək ifadə olunub. Bu mövqe NATO-nun sammit sənədlərində də dəfələrlə təsbit olunub. NATO-ya üzv dövlətlər tərəfindən Azərbaycanın "Qətiyyətli dəstək" missiyasındakı rolu xüsusi vurğulanıb. Azərbaycan NATO üçün və NATO Azərbaycan üçün dəyərli tərəfdaşlardır. Bunu alyans təmsilçiləri də dəfələrlə bildiriblər. Təşkilatın zirvə görüşlərində respublikamızın beynəlxalq terrorizmə qarşı mübarizəsinin dəstəklənməsi Azərbaycanın beynəlxalq aləmdə söz sahibi olmasını təsdiqləyir. Alyansın bütün zirvə görüşlərində Ermənistan–Azərbaycan, keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul olunan bəyanatlarda respublikamızın ərazi bütövlüyünün tanınması terrora qarşı beynəlxalq mübarizə koalisiyasının üzvü olan ölkəmizə isti münasibətin bariz nümunəsidir.

Yeri gəlmişkən, bu günlərdə NATO-nun Baş katibi Yens Stoltenberq Prezident İlham Əliyevə zəng edib. Bu, dövlət başçımızın dünya şöhrətli siyasi xadim olduğunun bariz nümunəsidir. Telefon danışığı əsnasında, alyansın baş katibi ötən ilin dekabrında dövlət başçımızın Brüsselə səfəri və qurumun ali orqanı olan Şimali Atlantika Şurasında çıxışına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib. Eyni zamanda, Azərbaycan – NATO əlaqələrinin inkişafından məmnunluq ifadə olunub, Cənubi Qafqaz regionunda postmünaqişə vəziyyəti, Ukrayna ətrafında cərəyan edən proseslərə və dünya enerji bazarındakı mövcud duruma dair fikir mübadiləsi aparılıb. Y. Stoltenberq Avropanın etibarlı qaz təchizatçısı olmasına və qaz ixracını artırmasına görə Azərbaycana təşəkkürünü bildirib.

Prezident İlham Əliyev Azərbaycanın enerji vasitələrinin önəmli ixracatçısı kimi etibarlı tərəfdaş olaraq qalmaqda davam edəcəyini diqqətə çatdırıb. Dünyanı narahat edən məsələlər barəsində NATO kimi nüfuzlu bir qurumun baş katibinin Azərbaycan Prezidenti ilə məsləhətləşməsi ölkəmizin dünya miqyasında nüfuzunun artmasının göstəricisidir.

Bütövlükdə, dövlət başçımızın xarici siyasət kursu bütün illər ərzində ölkəmizin milli təhlükəsizliyi və sosial-iqtisadi inkişafına töhfə vermək məqsədi daşıyırdı. Bu siyasi kurs dövlət başçımızın müəyyənləşdirdiyi istiqamətlərə uyğun olaraq həyata keçirilib. Müstəqil, açıq, praqmatik və milli maraqlara söykənən xarici siyasət kursu uğurla davam etdirilib. Dövlət başçımızın dediyi kimi, bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı hörmət və etimad əsasında münasibətlərin qurulması xarici siyasətimizin başlıca prioritetlərini təşkil edib. Diplomatiyamızın bu prinsiplər əsasında fəaliyyəti həm qonşu ölkələrlə, həm də regiondan kənardakı dövlətlərlə münasibətlərin yaxşılaşdırılmasında mühüm əhəmiyyət kəsb edib. Məhz bu uğurlu siyasət respublikamızı beynəlxalq aləmdə sabitlik adası kimi tanıdıb.

Son illər beynəlxalq münasibətlər sistemində gərginliyin artdığı hər kəsə bəllidir. Bir tərəfdən COVID-19 bəlasının dünyanın başı üzərindən getməməsi, münaqişələrin daha da alovlanması, miqrant axınının güclənməsi, toqquşmaların geniş vüsət alması, digər tərəfdən bir sıra ölkələr arasında münasibətlərin pozulması və müharibə həddinə çatması fonunda Azərbaycanın dünyada bölücü deyil, birləşdirici xətləri təşviq etməsi xüsusi qeyd edilməlidir. Bu fakt dünya ictimaiyyətinin də diqqətindən yayınmadı. Ona görə də 2020-ci il sentyabrın 27-də Ermənistanın sərhədboyu ərazilərimizdə geniş şəkildə təxribatlar törətməsi və bunu müharibəyə çevirməsi zamanı heç kəs ona dəstək vermədi.

Əslində, Ermənistan rəhbərliyi çox yaxşı bilirdi ki, köhnə sınıq-salxaq silahlarla Azərbaycana heç nə edə bilməyəcək. Çünki Azərbaycan Ordusunun dünyanın ən güclülərindən biri olduğu beynəlxalq ekspertlər tərəfindən də etiraf edilirdi. Buna baxmayaraq, Ermənistan işğalçılıq hikkəsindən əl çəkmirdi.Tam əmin idi ki, ən azı KTMT bu müharibədə ona dəstək verəcək. Ancaq bu qurumun nizamnaməsində yalnız təşkilata üzv olan ölkələrin ərazilərinin təhlükəsizliyinin təmin olunmasında bir-birilərinə dəstək verəcəyi qeyd edilmişdi. Müharibə zamanı KTMT-ə üzv dövlətlər açıq şəkildə bildirdilər ki, Azərbaycan öz ərazi btövlüyü uğrunda mübarizə aparır. Bundan sonra bütün ümidlər puç oldu və necə deyərlər, Ermənistanın "sındı qol-qanadı, yanına düşdü".

Azərbaycanın Ermənistan üzərində qazandığı tarixi qələbədən sonra dövlətimizin başçısına xarici ölkə rəhbərlərindən ünvanlanmış çoxsaylı təbriklər ölkəmizin ərazi bütövlüyünün beynəlxalq aləmdə də dəstəklənməsindən xəbər verirdi. Postmüharibə dövründə Qarabağda start götürmüş yenidənqurma, bərpa-quruculuq işlərinə xarici ölkələrin iri şirkətlərinin qoşulması respublikamızın haqlı olmasının nəticəsidir. Ötən ilin sonunda Beynəlxalq Ədalət Məhkəməsinin qərarı da Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin Azərbaycanın mövqeyinin getdikcə möhkəmləndirilməsindən, reytinqinin yüksəlməsindən xəbər verir. Artıq dünya ictimaiyyəti Azərbaycanı qalib ölkə kimi qəbul edir.

Xatırladaq ki, dekabrın 7-də Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın, o cümlədən, Ermənistan ərazisində fəaliyyət göstərən və azərbaycanlıları hədəfə alan fərdlər və təşkilatlar tərəfindən irqi ayrı-seçkiliyin təşviqini qadağan edən müvəqqəti tədbirlərə dair Azərbaycanın vəsatətini təmin edib. Bildirilib ki, məhkəmə, əsaslı olaraq, Ermənistan tərəfinə azərbaycanlıların insan hüquqlarının pozulmasının qarşısını almaq üçün təcili tədbirlər görməyi tapşırıb. Bu, onu göstərir ki, Qarabağda baş verən hadisələr, Ermənistanın işğalçılıq siyasəti, eyni zamanda, bu ölkənin işğal etdiyi Azərbaycan ərazilərində törətdiyi vandalizm bütün beynəlxalq təşkilatlar tərəfindən, bəzən, hətta dilə gətirməsələr də, diqqət mərkəzindədir. Onlar bu cinayətlərin, vəhşiliyin nədən ibarət olduğunu artıq dərk edirlər. Dünya ictimaiyyəti də artıq reallıqla razılaşıb – Qarabağın Azərbaycan ərazisi olduğunu qəbul edir, Ermənistanın yalanlarına inanmır. Məhz bu baxımdan da hazırda beynəlxalq ictimaiyyət Ermənistanın 30 il ərzində apardığı işğalçılıq siyasətini pisləyir. Bu, diplomatik fəaliyyətimizin uğurlarının növbəti təzahürüdür.

Ötən il dövlət başçımızın xarici ölkələrə səfərləri, həmçinin beynəlxalq tədbirlərdə iştirakı və çıxışları da bunu təsdiqləyir. Xatırladaq ki, Prezident İlham Əliyev ötən il 7 dəfə xaricə səfər edib, 12 prezident və 3 beynəlxalq təşkilat rəhbəri ilə görüşüb. Belə bir zamanda, yəni işğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işlərinin geniş şəkildə start götürdüyü, eyni zamanda, dünyanı koronavirus pandemiyasının bürüdüyü bir vaxtda Azərbaycan Prezidenti Rusiyaya dörd, Türkiyə, Türkmənistan və Belçikaya bir dəfə səfər edib. O cümlədən, dövlətimizin başçısı bu səfərlər zamanı 12 ölkənin prezidenti, 3 beynəlxalq təşkilatın rəhbəri, 2 ölkənin baş naziri ilə görüşüb və ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsi ilə əlaqədar müzakirələr aparıb. Təbii ki, bütün bunlar ölkəmizin xarici siyasətinin kifayət qədər dolğun, düşünülmüş və çoxşaxəli olmasından xəbər verir.

2022-ci il də Prezidentimizin gərgin iş qrafiki ilə başlayıb. Fevralın 11-ə qədər dövlət başçımızın beynəlxalq miqyaslı görüşlərinin, qəbulların, səfərlərinin, tədbirlərdəki çıxışlarının sayı artıq 13-ə çatıb. Bu tədbirlərin hamısında məqsəd birdir: milli təhlükəsizliyimizin təmin olunması, sosial-iqtisadi inkişafın möhkəmləndirilməsi.

Azərbaycanın nüfuzlu beynəlxalq qurumlarla, xüsusilə, Avropa İttifaqı ilə münasibətləri bərabərhüquqlu tərəfdaşlıq əsasında inkişaf etdirilir. Yeri gəlmişkən, Avropa İttifaqı komissarlarının iştirak etdiyi Cənub Qaz Dəhlizi Məşvərət Şurası VIII toplantısında da bu məsələ öz əksini tapdı. Enerji sahəsində Avropa İttifaqı ilə strateji tərəfdaşlığın inkişafı yüksək səviyyədədir. Qarabağda mövcud olan cari vəziyyət, Ermənistan ilə münasibətlərin normallaşması, eləcə də sərhədlərin delimitasiya və demarkasiya prosesi, mina təhlükəsizliyi kimi məsələlər barədə əməkdaşlıq davam etdirilir.

Avropa İttifaqının komissarı Oliver Varhelyinin Aİ üçün Azərbaycan ilə tərəfdaşlıq münasibətlərinin böyük əhəmiyyət kəsb etdiyini və bu münasibətlərin daha da gücləndirilməsinin vacib olduğunu qeyd etməsi ölkəmizin getdikcə artan nüfuzunun təsdiqdir. Avropalı diplomatın Azərbaycanın Aİ-nin etibarlı tərəfdaşı olduğunu vurğulaması, iqtisadi sərmayə planı çərçivəsində Azərbaycana 2 milyard avroluq maliyyə paketinin ayrıldığını bildirməsi ölkəmizin etibarlı tərəfdaş olmasından xəbər verir. Aİ rəsmisinin bu qurumun Azərbaycanda həyata keçirilən bərpa və yenidənqurma prosesində iştirak etməyə hazır olduğunu bəyan etməsi də qürurverici haldır.

Fevralın 4-də Prezident İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilən görüşdə müzakirə olunan məsələlər, o cümlədən, Şarl Mişel və Emmanuel Makronun birgə bəyanatı üzrə qəbul edilən sənəd mahiyyət və məzmun etibarilə ötən ilin sonunda Brüsseldə keçirilən görüşlərdəki uğurlu sülh gündəliyinin davamı kimi dəyərləndirilməlidir.

Azərbaycan bu gün dünyada qalib ölkə kimi qəbul edilir. Bu reallıqdan yayınmaq mümkün deyil. Paşinyan və onun komandası bölgədə sülhün bərpa olunması üçün 10 noyabr 2020-ci il Üçtərəfli bəyanatın müddəalarını icra etməyə məhkumdur. Zəngəzur dəhlizinin açılması, sərhədlərin delimitasiya və demarkasiyası böyük sülh sazişinə hazırlıqdır. Həyata keçirilən uğurlu diplomatik fəaliyyət bu məsələlərin də tezliklə reallaşdırılacağına inam yaradır.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 18 fevral.- S.1;4.